# Rayon birinciliyi keçirilib

***Qəbələ Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə 10 oktyabr 2018-ci il tarixdə Qəbələ şəhər 3 nömrəli tam orta məktəbdə gənclərin orduya payız çağırışına həsr edilmiş "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyi keçrilmişdir.***



Yarışın keçirilməsində məqsəd yeniyetmə və gəncləri vətənin müdafiəsinə mənəvi və fiziki cəhətdən hazırlamaq, gənclərdə vətənə məhəbbət və vətənpərvərlik hissini artırmaq, çağırış və çağırış yaşına qədərki gənclərin hərbi hazırlığını gücləndirmək, idmançılarda yarış təcrübəsini və ustalığı artırmaqdan ibarətdir.

Tədbirin açılış mərasimində Qəbələ Rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov komandaları salamlayaraq Respublikada idmana göstərilən dövlət qayğısından danışmış, yarışın məqsəd və vəzifələri barədə məlumat verərək idmançılara nailiyyətlər arzulamışdır.

Beynəlxalq Poliatlon çoxnövçülüyü Assosiasiyasının qaydalarına əsasən 100 metr məsafəyə qaçış, turnikdə dartınma və qumbara atma üzrə keçirilən birincilikdə rayonun tam orta məktəblərindən 20-dək komanda iştirak etmişdir.

Yarışın yekun nəticəsinə əsasən Soltannuxa kənd tam orta məktəbin komandası I, Mıxlıqovaq kənd tam orta məktəbinin komandası II və Zarağan kənd 2 nömrəli tam orta məktəbinin komandası III yeri tutmuşlar. Qalib komandalara gənclər və idman idarəsinin diplomları təqdim edilmişdir.

Birinci yeri tutmuş Soltannuxa kənd tam orta məktəbinin komandası Respublika çempionatının İsmayıllı rayonunda keçiriləcək zona mərhələsində iştirak etməyə vəsiqə qazanmışdır.

**Elçin OSMANOV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi .**
**Səhrab UMUYEV (foto).**

# İdman xəbərləri

## Olimpiya Oyunlarının bürünc medalını qazandı




Azərbaycan milli komandasının və "Qəbələ" İdman Klubunun taekvondoçusu Cavad Ağayev növbəti uğuruna imza atıb. Bu il dünya çempionu adını qazanan idmançımız Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında da fərqlənib. 63 kq çəki dərəcəsində çıxış edən Ağayev 1/8 finalda Cənubi Sudan təmsilçisi Stefan Atem ilə qarşılaşıb. Döyüşün gedişində afrikalı taekvondoçu diskvalifikasiya olunub. 1/4 finalda isə Cavadın rəqibi İran idmançısı Həmed Əsgəri Mahiabadi olub. 9:8 hesabı ilə qalib gələn idmançımız yarımfinala yüksəlib. Ağayev finalın bir addımlığında Cənubi Koreya taekvondoçusu Ço Vun Hu ilə üz-üzə gəlib. 13:15 hesabı ilə məğlub olan təmsilçimiz Olimpiya Oyunlarının bürünc mükafatını qazanıb.

## «Qəbələ» yoxlama oyununda qalib gəldi



Topaz Premyer Liqasının II dövrəsinin hazırlıqlarını davam etdirən "Qəbələ" yoxlama oyunu keçirib. "Qırmızı-qaralar" "Səbail"lə üz-üzə gəlib. Görüş "Bakı" FK-nın təlim-məşq meydanında baş tutub.

Yoxlama oyunu qarşılıqlı hücumlar şəraitində keçib. İlk hissəsi qolsuz başa çatan matçda hesab fasilədən sonra açılıb. Oyunun 65-ci dəqiqəsində Ceyms Adeniyi fərqlənib. Adeniyinin vurduğu top qarşılaşmada yeganə olub və "Qəbələ" meydandan qələbə ilə ayrılıb - 1:0.

## Güllə atıcılığı üzrə Dünya Kubokunun mərhələ yarışı Qəbələdə keçiriləcək

Azərbaycanın 2020-ci ildə Qəbələdə təşkil olunacaq güllə atıcılığı üzrə Dünya Kubokunun mərhələ yarışına ev sahibliyi ilə bağlı oktyabrın 11-də mətbuat konfransı keçirilib.

Konfransda Dünya Kubokunun mərhələ yarışının Qəbələdə keçirilməsi qərara alınıb. Yarışın əsas təşkilatçısı kimi, Azərbaycan Atıcılıq Federasiyası təyin olunub. Bu, Tokio Olimpiadasından əvvəl keçiriləcək sonuncu Dünya Kuboku yarışı olacaq. İyunun 19-27-də təşkil ediləcək yarışda 70-dən çox ölkədən 600-dək idmançının iştirakı gözlənilir. Onların arasında tanınmış atıcılar, dünya və Avropa çempionları, Olimpiya Oyunlarının qalibləri olacaq. Atletlər güllə atıcılığının on Olimpiya növündə mübarizə aparacaqlar.

# Xalq təbabəti

## Yemişan dəmləməsi



Yemişandan müalicəvi xüsusiyyətlərinə görə həm xalq təbabətində, həm də elmi təbabətdə çox geniş istifadə olunur. Bu bitkini haqlı olaraq «qoca ürəyin dərmanı» adlandırırlar. Lakin yemişan tək yaşlılar üçün deyil, cavanlar üçün də çox faydalıdır.

Yemişan ürək əzələsini möhkəmləndirir, təzyiqi salır, damarları genişləndirir, damarlarda xolesterolun yığılmasına mane olur.

Bundan əlavə yemişan sinir sistemi üçün də olduqca faydalıdır - insanı sakitləşdirir, əsəbiliyi və gərginliyi azaldır, stress və nevroz zamanı yaxşı kömək edir. Meteohəssaslıqla bağlı olan pozulmaların azalmasına müsbət təsir göstərir.

Ürəyinizi və sinirlərinizi möhkəmləndirmək istəyirsinizsə hər gün belə faydalı dəmləmə hazırlayın:

1 xörək qaşığı yemişan meyvələrini bir qədər əzin, üzərinə 1 stəkan isti su tökün və termosda 1 saat ərzində dəmləyin. Sonra dəmləməni yaxşı süzün və gündə 2 dəfə yarım stəkan olmaqla için. Dəmləmənin dadını yaxşılaşdırmaq üçün bal da əlavə edə bilərsiniz. Dəmləməni 2-3 həftə ərzində için, effektini görəcəksiniz.

# Bilirsinizmi?

● Bayquş mavi rəngi görə bilən yeganə quşdur

● İnsan orqanizminin tərkibinə cəmi 4 mineral daxildir: apatit, araqonit, kalsit, kristobalit.

●İnsanın nazik bağırsağı sağlığında 2.5 metr uzunluğda olur.Ölümündən sonra bağırsağın divarının əzələləri boşaldığından onun uzunluğu 6 metrə çatır.

●İnsanın sağ ağciyəri sol ağciyərinə nisbətən özünə daha çox hava yerləşdirir.

●İnsan orqanizmində olan piylər 7 ədəd sabun istehsalı üçün lazım olan miqdardadır.

●Ağcaqanadlar əllərini ovuşdurup başlarından keçirmə hərəkətini, uçarkən əllərinə yapışan molekulları təmizləmək məqsədi ilə edirlər.

●Həddindən artıq qidalanma eşitmə qabiliyyətini ağırlaşdırır.

# İTMİŞDİR

Qəbələ Rayon Polis Şöbəsi tərəfindən Sileyli kənd sakini Salmanov Şamo Əliyusif oğluna 28 yanvar 2013-cü il tarixdə verilmiş AZE seriyalı 13112272 nömrəli **şəxsiyyət vəsiqəsi** və BDYPİ Şəki RQİTBŞ tərəfindən vətəndaşa məxsus VAZ 2106 markalı 36 BÇ 695 dövlət nömrə nişanlı avtomaşına verilmiş **qeydiyyat şahadətnaməsi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il 09 saylı qərarı ilə Mirzəbəyli kənd sakini Ədilov Namiq Vəliyyədin oğluna verilmiş JN seriyalı 093 A nömrəli (kod 40613018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

# ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon İcra Hakimiyyətinin rəhbərliyi və aparatın kollektivi RİH başçısının birinci müavini **Abil Ağasəfova** yaxın qohumu

**ZAHİR AĞAYEVİN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

«Qəbələ» qəzeti redaksiyasının kollektivi RİH başçısının birinci müavini **Abil Ağasəfova** yaxın qohumu

**ZAHİR AĞAYEVİN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*
*Məsul katib*
*Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1847*